No: 01 2026
https://doi.org/10.64400/ea26-01-16
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNUN TURİZM-REKREASİYA EHTİYATLARI, ONLARIN ÖYRƏNİLMƏSİNİN TARİXİ-COĞRAFİ ASPEKTLƏRİ

**Abdulla RZAYEV**
AR ETN Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
**Yazışılan müəllif: rzayevabdulla65@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 03.03.2026*
*Nəşr edilmə tarixi: 17.03.2026*

**AÇAR SÖZLƏR:**
Lənkəran-Astara, turizm-rekreasiya ehtiyatları, mineral bulaqlar, termal bulaqlar, müalicə-sağlamlıq turizmi

**XÜLASƏ**
Lənkəran-Astara iqtisadi rayonu turizm və rekreasiya potensialına görə Azərbaycanın ən zəngin təbii sərvətlərə malik regionlarından biri hesab olunur. Regionun subtropik iqlimi, Xəzər dənizi sahil zolağı, sıx meşə landşaftları, eləcə də mineral və termal bulaqları onun turizm baxımından cəlbediciliyini artıran əsas amillərdəndir. Tədqiqatın məqsədi iqtisadi rayonun turizm-rekreasiya ehtiyatlarını kompleks şəkildə qiymətləndirmək və onların inkişaf xüsusiyyətlərini təhlil etməkdən ibarətdir. İşdə tarixi-coğrafi təhlil, müqayisəli qiymətləndirmə və statistik məlumatların araşdırılması metodlarından istifadə olunmuşdur. Aparılan təhlillər göstərir ki, bölgədə turizm fəaliyyətinin formalaşması hələ XIX əsrdə mineral bulaqların müalicəvi xüsusiyyətlərinin öyrənilməsi ilə başlamışdır. Sovet dövründə nəqliyyat şəbəkəsinin və kurort infrastrukturunun inkişafı nəticəsində region ümumittifaq əhəmiyyətli istirahət zonasına çevrilmişdir. Müstəqillik illərində həyata keçirilən dövlət proqramları turizmin inkişafını sürətləndirmiş, kurort turizmi ilə yanaşı ekoturizm, aqroturizm və çimərlik turizmi istiqamətləri də formalaşmışdır. Tədqiqatın nəticələri göstərir ki, zəngin təbii və rekreasiya ehtiyatlarına baxmayaraq, regionun mövcud turizm potensialından hələ tam səmərəli istifadə olunmur. Mövcud imkanlardan rasional istifadə və müasir infrastrukturun gücləndirilməsi Lənkəran-Astara iqtisadi rayonunun beynəlxalq turizm mərkəzlərindən birinə çevrilməsinə şərait yarada bilər.

## GİRİŞ

Azərbaycan Respublikasının cənub zonasında yerləşən Lənkəran-Astara iqtisadi rayonu ölkənin özünəməxsus və yüksək rekreasiya potensialına malik ərazilərindən biridir. Region faydalı qazıntılarla zəngin olmasa da, təbii landşaft müxtəlifliyi, ölkə ərazisindəki yeganə rütubətli subtropik iqlim şəraiti, qumlu sahilləri, termal və mineral suları ilə fərqlənir. Xüsusilə Hirkan Milli Parkı, Talış dağ-meşə zonası və Xəzərsahili kurort zonaları bu ərazini həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə cəlbedici turizm istiqamətinə çevirir. Lənkəran-Astara iqtisadi rayonunda müxtəlif növ turizm formalarının – balneoloji, kənd, çimərlik, mədəni, qastronomik və ekoturizmin inkişafı üçün əlverişli şərait mövcuddur. Bununla yanaşı, regionun sosial-iqtisadi inkişafı, yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluğu və gəlir səviyyəsinin yüksəlməsi baxımından burada turizm sektoru mühüm rol oynayır. Son illərdə tədqiqat regionunda turizm infrastrukturunun genişlənməsi, otel və istirahət komplekslərinin inşası, nəqliyyat-kommunikasiya şəbəkələrinin təkmilləşdirilməsi, ekoloji tarazlığın qorunması istiqamətində görülən tədbirlər turizm sektorunun potensialını daha da artırmışdır. Bununla yanaşı, mövcud ehtiyatların elmi cəhətdən öyrənilməsi, təhlili və xronoloji müqayisəsi turizmin dayanıqlı inkişafı üçün zəruridir.

Lənkəran-Astara iqtisadi rayonunun turizm-rekreasiya ehtiyatlarının öyrənilməsinə dair elmi mənbələr göstərir ki, bu sahədə tədqiqatlar ilk olaraq XIX əsrin ortalarına təsadüf edir. Mövzu ilə əlaqədar yerli və xarici alimlər tərəfindən ilk olaraq regionun əsasən mineral və termal bulaqların öyrənilməsinə xüsusi diqqət ayrılmışdır. Aparılan tədqiqatlar göstərir ki, doğrudan da Lənkəran-Astara iqtisadi rayonunun ərazisi mineral sularla çox zəngindir. İndiyə qədər regionda mineral sular mövzusu hidrogeoloji, tibbi, iqtisadi baxımdan araşdırılsa da, iqtisadi-coğrafi aspektdə kompleks şəkildə ilk dəfədir ki, tədqiq edilir. Qarşımıza qoyulan məqsəd və vəzifələrin səmərəli həll edilməsi üçün tərəfimizdən zəngin material toplanmış, müvafiq mənbələr araşdırılmış və problemin iqtisadi-coğrafi aspektdə tədqiq edilməsinə cəhd göstərilmişdir.

Məqalənin əsas məqsədi Lənkəran-Astara iqtisadi rayonunun turizm-rekreasiya ehtiyatlarının təbii-coğrafi xüsusiyyətlərini öyrənmək, onların mövcud və potensial istifadəsini qiymətləndirmək və regionda turizmin müasir vəziyyətini elmi əsaslarla təhlil etməkdən ibarətdir.

## MATERİAL VƏ METODLAR

Tədqiqatın aparılmasında və məqalənin ərsəyə gəlməsində Lənkəran-Astara iqtisadi rayonunun turizm-rekreasiya ehtiyatları, onların coğrafi yayılması və turizmin təsərrüfatının müasir vəziyyəti ilə bağlı müxtəlif elmi və statistik materiallardan geniş istifadə olunmuşdur. İşin informasiya bazasını regiona aid olan Lənkəran, Astara və Masallı bölgələrinin turizm ehtiyatları haqqında olan elmi mənbələr, xəritə və statistik göstəricilər təşkil etmişdir. Məqalənin formalaşmasında tarixilik, müqayisə və sistemli yanaşma kimi metodlardan istifadə olunmuşdur. Ərazinin turizm-rekreasiya ehtiyatlarının öyrənilməsinin tarixi sıralı şəkildə nəzərdən keçirilmiş və əldə olunan informasiya bazasının regionda turizmin inkişafına müsbət təsirinin kəmiyyəti göstərilməyə çalışılmışdır.

## NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Lənkəran-Astara iqtisadi rayonu Azərbaycan Respublikasının cənub hissəsində yerləşir və ümumi 6.070 km² ərazini əhatə edir. Rayonun əhalisi 2025-ci ilin 1 yanvar tarixinə olan statistik göstəricilərə əsasən 943,8 min nəfər təşkil edir ki, bu da əhali sıxlığının kifayət qədər yüksək olduğunu göstərir (Azərbaycanın demoqrafik göstəriciləri, 2025). Əhali əsasən Lənkəran, Masallı və Cəlilabad rayonlarında cəmləşmişdir, dağlıq ərazilərdə isə sıxlıq nisbətən aşağıdır.

İqtisadi rayon Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı inzibati rayonlarını özündə birləşdirir. Bu rayonlar kənd təsərrüfatı potensialı, nəqliyyat mövqeyi və təbii sərvətləri ilə bir-birini tamamlayan sosial-iqtisadi struktura malikdir. Lənkəran və Astara ticarət və çayçılıq sahələri ilə fərqlənir, Cəlilabad və Masallı daha çox kənd təsərrüfatı istiqamətində ixtisaslaşmışdır. Lerik və Yardımlı rayonlarında isə dağlıq relyef ekoloji təmiz mühiti və turizm üçün əlverişli şəraiti ilə seçilir. Yuxarıda qeyd olunan məlumatlara dair icmal Cədvəl 1-də göstərilmişdir.

*Cədvəl 1*

**Lənkəran-Astara iqtisadi rayonunun sosial-iqtisadi göstəriciləri və turizmin vəziyyəti**

| Sahəsi | Əhalisi | İnzibati rayonları | İnkişaf edən turizm sahələri |
|---|---|---|---|
| 6.070 km² | 943,8 | Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı, Yardımlı | Sağlamlıq turizmi, kənd turizmi, mədəni turizm, qastronom və qismən ekoturizm |

Əhalinin istirahəti və müalicəsi üçün istifadə olunan kurort-rekreasiya ehtiyatları təbii və antropogen olmaqla 2 qrupa bölünür. Təbii-rekreasiya ehtiyatlarına istirahət, müalicə, turizm üçün istifadə edilən təbiət hadisələri və obyektləri aid edilir. Rekreasiya ehtiyatlarının ikinci qrupu olan-antropogen ehtiyatlara mədəni-tarixi və görməli yerlər, ümumilikdə insanlar tərəfindən yaradılmış turizm-rekreasiya ehtiyatları daxildir (Paşayev et al., 2010). Bu tərif nəzərə alınmaqla qeyd etmək mümkündür ki, Lənkəran-Astara iqtisadi rayonu özünəməxsus iqlim xüsusiyyətləri, aqroiqlim, meşələri və mineral su ehtiyatları ilə turizm-rekreasiya baxımından zəngin resurslara malikdir. Rayonun ekoloji cəhətdən zəngin meşə fondunu Talış silsiləsinin yamaclarında yerləşən çoxqatlı meşələr təşkil edir. Bu meşələr yalnız Azərbaycan üçün deyil, bütün Qafqaz üçün səciyyəvi subtropik rütubətli meşə tipini qoruyub saxlayan nadir landşaft kompleksidir. Şabalıdyarpaq fıstıq, dəmir ağacı, azatağacı kimi relikt və endemik növlərin geniş yayılması ərazini bioloji müxtəliflik baxımından xüsusi əhəmiyyətli zonaya çevirir. Tarixinə görə ikinci və ərazisinə görə ən böyük hesab edilən Qızılağac dövlət təbiət qoruğu da 1929-cu ildə məhz burada salınmışdır. Fauna müxtəlifliyi də turizmin cazibəsini artırır və eyni zamanda ekoturizm üçün əlverişli şərait yaradır. 2004-cü ildə yaradılan və 2023-cü ildən etibarən UNESCO-nun Ümumdünya irsi obyektləri siyahısına transmilli

irsi obyekt kimi daxil olan, o cümlədən 55.000 km2 ərazini əhatə edən Hirkan Milli Parkı və digər qorunan ərazilər burada həm təbiətsevərlər, həm də elmi ekspedisiyalar üçün mühüm marşrutlar formalaşdırır. Rayonun aqroiqlim göstəriciləri də turizm imkanlarının genişlənməsinə səbəb olur. Subtropik, rütubətli və yumşaq iqlim şəraiti ildə uzun vegetasiya dövrü yaradır və çəltikçilik, sitrusçuluq, çayçılıq, tərəvəzçilik və bağçılıq sahələrinin inkişafına əsas verir. Yerli çay plantasiyaları, çay emalı müəssisələri və sitrus bağları kənd turizmi və aqroturizm üçün cəlbedici obyektlərə çevrilmişdir. Yerli təsərrüfatlarda çay yığımı, sitrus məhsullarının becərilməsi və ənənəvi kənd məişətini əks etdirən fəaliyyətlər turistlərin marağına səbəb olur. Əlverişli iqtisadi-coğrafi mövqedə yerləşməsi və Bakı şəhəri ilə hər cürə nəqliyyat növü ilə əlaqənin mümkün olması da regionun iqtisadiyyatına pozitiv yöndə təsir göstərir

Azərbaycanda turizm özünün inkişaf pillələri olaraq müxtəlif mərhələlərdən keçmişdir. B.Bilalov bu mərhələləri qədim dövrlərdən XIX əsrin əvvəllərinə qədər, Azərbaycanın Çar Rusiyasının tərkibində olduğu 1806-1918-cı illər, 1920-1991-ci illər arasında Sovet İttifaqının tərkibində olduğu və 1991-ci ildən sonrakı müstəqillik dövrü olmaqla 4 dövrə bölür (Bilalov, 2008). H.Soltanova isə nisbətən daha geniş bir dövrləşməni nəzərdə tutaraq onları qədim və orta əsrlər (karvanları mərhələləri), XIV-XIX əsrin sonuna, XIX əsrin sonu XX əsrin ortalarına, müstəqillik dövrünə qədərki(1950-1991) və müstəqillikdən sonrakı(1991-dən bu günə qədər) olmaqla 5 mərhələyə ayırır (Soltanova, 2015).

Mövzuyla əlaqədar olan yerli və xarici alimlər ilk başda regionun turizm ehtiyatları içərisində aparıcı yerlərdən birini tutan mineral və termal su bulaqlarının öyrənilməsi ilə tədqiqə başlamışdırlar. Lənkəran-Astara iqtisadi rayonu mineral sular baxımından çox zəngindir. Buradakı termal sularda istilik 45 °C ilə 64 °C arası dəyişir və bu suların tərkibində əsas elementlər kimi azot və metan mövcuddur (Мухтаров & Хаммедов, 2003). Ümumilikdə, Lənkəran ərazisində 157 mineral su çıxışı qeydə alınmışdır ki, bunlardan 38 ədədinin turizm əhəmiyyətli olduğu proqnozlaşdırılmışdır. N.Babaxanov və İ.Əliyev mövzuya dair məqalələrində göstərmişdirlər ki, Çar Rusiyası dövründə ərazinin mineral və termal bulaqlarına olan maraq onların sahib olduğu yüksək müalicə-sağlamlıq xüsusiyyətləri ilə bağlı olmuşdur (Babaxanov & Əliyev, 2020). Tarixi mənbələr göstərir ki, Çar Rusiyası dövründə Azərbaycanın cənub bölgəsində yerləşən mineral və termal bulaqlar təkcə yerli əhali tərəfindən deyil, bölgədə xidmət aparan rus hərbçiləri tərəfindən də sağlamlıq bərpasının effektiv vasitəsi kimi geniş istifadə olunurdu. Bu fakt həmin mənbələrin müalicəvi xüsusiyyətlərinin hələ XIX əsrdə rəsmi şəkildə qeyd edildiyini təsdiq edir.

Həmin dövrün elmi-coğrafi araşdırmalarında azərbaycanlı coğrafiyaşünas Məmmədəli bəy Şəfiyevin adı xüsusilə fərqlənir. Mənbələrdən məlum olur ki, Şəfiyev bu mövzuya dəfələrlə müraciət etmiş, bölgənin termal bulaqlarının təsnifatı və istifadəsi haqqında dövrün elmi mətbuatında xeyli sayda materiallar dərc etdirmişdir. Babaxanov və Əliyevin araşdırmalarında qeyd olunur ki, Məmmədəli bəy Şəfiyevin mineral bulaqlarla bağlı qeydləri hələ 1854-cü ildə Rusiya Coğrafiya Cəmiyyətinin xəbərlərində, bundan əvvəl isə 1853-cü ildə və daha sonra isə 1875-ci ildə rus dilində nəşr olunan “Qafqaz” qəzetində dərc edilmişdir. Həmin yazılar dəqiq coğrafi məlumatlar verdiyinə görə bu gün də mühüm əhəmiyyət kəsb etməkdədir. Onlar həmçinin müalicəvi su ehtiyatlarını təsvir edir və onların istifadəsinə dair elmi qiymətləndirmələri ehtiva edir. (Babaxanov & Əliyev, 2020; Сафиев, 1853, 1854, 1874). Bu fakt göstərir ki, Lənkəran-Astara bölgəsinin balneoloji potensialı hələ XIX əsrin ortalarından etibarən həm yerli, həm də rus elmi ictimaiyyətinin diqqət mərkəzində olmuşdur. Bölgənin əsas turizm ehtiyatlarından hesab olunan mineral bulaqların tədqiqi daha sonrakı dövrdə də sürətlə davam etmişdir. Bununla əlaqədar, 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində ərazidə mövzuya dair araşdırmalar aparan D.M.İlyinin, M.Orqanoviçin, A.Konsinin və Q.Çurkin kimi alimlərin tədqiqatlarını misal göstərmək mümkündür.

Azərbaycanda mütəşəkkil turizmin təşkil edilməyə başlandığı XX əsrin əvvəllərindən etibarən turizmin ehtiyatlarının öyrənilməsində yeni mərhələ başlandığı kimi, Lənkəran-Astara zonasındakı tədqiqatlar da daha geniş həcmli və bölgənin bütün resurslarının ümumi və holistik analizi formatına keçid edilmişdir. Ərkivan mineral bulaqları üzərində araşdırma aparan rus alimi V.Vitoviç bu mövzuya dair bir məqaləsini 1924-cü ildə nəşr etdirmişdi. Onun məqaləsinin yekunlara görə, Ərkivan

mineral bulaqları Lənkəran qəzasının mühüm müalicə-resurs kompleksi kimi tanınırdı. Burada təxminən 20 termal bulaq mövcud olmuş və onların suları revmatizm, dəri xəstəlikləri, podaqra və müxtəlif iltihabi xəstəliklərin müalicəsində istifadə edilirdi. Mövsüm ərzində minlərlə insan bölgəyə gəlir, çadırlarda məskunlaşaraq açıq vanna üsulu ilə müalicə alırdı. Lakin sanitar vəziyyət zəif, həkim nəzarəti qeyri-kafi, içməli su və qida təminatı isə məhdud idi. Buna baxmayaraq, Ərkivan sularının müalicəvi təsiri geniş yayılmışdı və əlavə investisiya olunduğu təqdirdə, ərazinin inkişaf etmiş kurort mərkəzinə çevrilə biləcəyi qeyd edilirdi (Витович, 1924).

Yenə həmin dövrdə, 1925-ci ildə S. Anisimov tərəfindən nəşr olunmuş "Qafqaz Səyahət Bələdçisi. Qafqaz Bölgəsi" adlı əsərdə Lənkəran–Astara ərazisinin yerləşən, subtropik iqlimli, meşələrlə və bataqlıqlarla zəngin, məhsuldar torpaqlara malik liman şəhəri kimi səciyyələndirir. Burada çəltikçilik, pambıqçılıq və cənub meyvəçiliyi kimi sahələrin geniş inkişaf etdiyi, liman vasitəsilə meyvə, şərab, balıq, ağac və tərəvəz ixrac olunduğu bildirilir. Kitabda həmçinin turizm–rekreasiya ehtiyatlarına da geniş yer verilmişdir. Lənkəranın yaxınlığında yerləşən Miakun mineral bulaqlarının isti kükürdlü suları müalicəvi xüsusiyyətlərinə görə kurort əhəmiyyətli obyekt kimi qeyd olunur. Həmçinin əhalinin etnik tərkibi, yaşayış məskənlərinin yerləşməsi və məişət xüsusiyyətləri haqqında da geniş təsvirlər verilir. Bəhs olunan əsərdə regionun təbii-coğrafi şəraiti, iqlim xüsusiyyətləri, kurort imkanları və əhalinin həyat tərzi haqqında ətraflı məlumat verilir (Анисимов, 1925).

1928-ci ildə çap etdirdiyi " Azərbaycanın kurortları" kitabında həkim V.Olenov Lənkəran-Astara zonasının geniş sağlamlıq turizmi imkanlarına malik olduğunu qeyd edirdi. Olenova görə, Lənkəran zonası mineral və termal sulardan ibarət geniş müalicə-sağlamlıq resurs bazasına malikdir. Ən çox tanınan mənbələr Ərkivan, Prişib(indiki Göytəpə kəndi), və İbadisu sularıdır. Bu sular dağlıq və meşəlik relyefdə çıxaraq, gündə minlərlə hektolitr su verir, kimyəvi tərkibi isə hidrokarbonatlı, hidrogen-sulfidli və mineral duzlarla zəngindir. Suların temperaturu mənbələrə görə dəyişir: bəzi bulaqlarda 48 °C, digərlərində 62–64 °C, bəzən isə 70–91 °C temperatur qeydə alınır. O həmçinin qeyd edirdi ki, 1925-ci ildən sonra Lənkəran zonasında rəsmi sanatoriya tikintisi başlanmış, 100 çarpayılıq müalicə korpusu, xüsusi vannalar, termal hovuzlar və həkim nəzarəti ilə müalicə sistemi tətbiq edilmişdir. Statistikaya görə, sanatoriya o dövrdə ildə 7–8 min xəstəyə xidmət edirdi (Olenov, 1928).

Müharibədən sonrakı SSRİ dövründə Lənkəran zonasında yerləşən kurortların tədqiqi və onların müalicə-profilaktik əhəmiyyətinin öyrənilməsi məsələsi yenidən elmi gündəmə gətirilmişdir. Bu dövrdə Ş. Həsənovun "Azərbaycan SSR-nin kurortları və onların müalicə əhəmiyyəti" adlı əsərində, həmçinin M. Hüseynov və A. Yeqizarovun həmmüəllifliyi ilə nəşr olunmuş "Sovet Azərbaycanının kurortları" kitabında Lənkəran bölgəsinin kurort potensialı və tibbi-balneoloji xüsusiyyətləri ayrıca tədqiqat obyekti kimi nəzərdən keçirilmişdir (Həsənov, 1959; Hüseynov & Yegizarov, 1960). Bu mərhələdən etibarən Lənkəran bölgəsində turizm infrastrukturunun sistemli şəkildə yenidən qurulması və genişləndirilməsi prosesi həyata keçirilmişdir. Bu inkişafın əsas hərəkətverici amili 1950–1960-cı illərdən başlayaraq nəqliyyat-kommunikasiya şəbəkəsinin modernləşdirilməsi ilə bağlı olmuşdur. 1951-ci ildə dəmir yolunun, 1956-cı ildə isə magistral avtomobil yolunun istifadəyə verilməsi bölgənin SSRİ miqyasında mühüm istirahət və sağlamlıq məkanı kimi formalaşmasına şərait yaratmışdır.

1960–1990-cı illər ərzində Lənkəran–Astara zonasında kurort və sanatoriya infrastrukturu ardıcıl olaraq genişləndirilmiş, müxtəlif turizm obyektləri, hotellər və pansionatlar tikilərək istismara verilmişdir. 1961-ci ildə Meşəsu və Ərkivan mineral sularında yeni kurort tikintisi layihələndirilmiş və qısa müddət ərzində müəssisələr fəaliyyətə hazır vəziyyətə gətirilmişdir. 1971-ci ildə Masallı rayonu ərazisində yerləşən İstisu mineral suları əsasında fəaliyyət göstərən eyniadlı sanatoriya-kurort kompleksi "Xüsusi əhəmiyyətli ümumittifaq müalicəvi kurort sanatoriyası" statusu almışdır.

Turizm mütəxəssislərinin qiymətləndirmələrinə əsasən, 1974–1987-ci illər bölgənin ən intensiv turist qəbul edildiyi dövr olmuşdur. 1972-ci ildə Lənkəran hava limanının istifadəyə verilməsi regionun turizm axınını xeyli artırmış, nəticədə artan tələbat 1987-ci ildə böyük tutumlu yeni otel kompleksinin tikilməsini zəruri etmişdir.

1991-ci ildən etibarən müstəqillikdən sonrakı ilk dövrdə ölkədəki müharibə və işğal şəraiti turizm sektoruna yönəldilən marağın və investisiyanın həcmini azaltsa da, 90-cı illərin ikinci yarısı və 2000-ci illərin əvvəllərindən etibarən turizmə ayrılan dövlət və özəl investitsiyaların miqdarı artmağa başlamışdır. Müstəqillik dövründə Azərbaycan turizminin inkişafı mərhələli şəkildə həyata keçirilmiş, 1999-cu ildən başlayaraq ardıcıl dövlət proqramları qəbul olunmuşdur. Bu mərhələdə tədqiq olunan ərazi ilə bağlı elmi bilik bazasının genişlənməsi müşahidə olunmuşdur. Müasir dövrdə Lənkəran–Astara zonasının turizm və rekreasiya potensialına dair çoxsaylı elmi məqalələr, diplom və magistr işləri, doktorantura dissertasiyaları, monoqrafiyalar və kitablar nəşr edilmişdir. Tədqiqatların istiqaməti iki əsas elmi xətt üzrə formalaşmışdır: birincisi, bölgənin təbii-coğrafi xüsusiyyətlərinin turizm baxımından qiymətləndirilməsinə, ikincisi isə turizmin iqtisadi inkişaf amili kimi öyrənilməsinə həsr olunmuş araşdırmalardır. Beləliklə, dövrün elmi işləri regionun həm coğrafi resurs potensialını, həm də sosial-iqtisadi təsir mexanizmlərini sistemli şəkildə təhlil etmişdir.

Bütün bunlar göstərir ki, regionda turizm ehtiyatlarının öyrənilməsi və istifadəsi ölkə iqtisadi planlamasındakı əsas istiqamətlərdən biri olmuşdur. Xüsusilə qəbul edilən "Strateji Yol Xəritəsi" turizmi qeyri-neft sektorunun əsas istiqaməti kimi müəyyən etmiş və sahənin institusional inkişafını təmin etmişdir. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"-nın yekun hesabatında da göstərildiyi kimi, otel sənayesinin qeyri-neft sektorunda mühüm istiqamətə çevrilməsi turizmin Azərbaycan iqtisadiyyatında prioritet mövqe qazanmasına şərait yaratmışdır. Yalnız paytaxtda deyil, regionlarda da çağdaş standartlara cavab verən mehmanxanaların fəaliyyətə başlaması və turist qəbuluna yönəlmiş kompleks tədbirlərin həyata keçirilməsi sahənin inkişaf tempini artırmış, ölkəyə səfər edən turistlərin sayının yüksəlməsinə zəmin yaratmışdır (todaypress.tv.az, 2025) Eyni zamanda, ölkə ərazisində beynəlxalq səviyyəli idman yarışlarının təşkili, eləcə də nüfuzlu qlobal tədbirlərin və ticarət festivallarının keçirilməsi turizm sektorunun genişlənməsinə əlavə təkan vermiş, həm Azərbaycanı, həm də tədqiq olunan ərazi olan Lənkəran-Astara ərazisini ziyarət edən xarici vətəndaşların sayında nəzərəçarpacaq dərəcədə artım yaratmışdır.

## NƏTİCƏ

Aparılan tədqiqatlar göstərir ki, Lənkəran–Astara iqtisadi rayonu Azərbaycan üzrə ən zəngin turizm-rekreasiya ehtiyatlarına malik bölgələrdən biridir. Subtropik iqlimi, dənizlə meşənin birləşdiyi landşaftı, eləcə də mineral sularının müalicəvi xüsusiyyətləri buranı ölkənin ən seçilən turizm zonalarından birinə çevirir. Hələ XIX əsrdən başlayaraq bu ərazi həm yerli, həm də xarici alimlərin diqqətini cəlb etmiş, mineral bulaqların insan sağlamlığına təsiri barədə dəyərli məlumatlar ortaya qoyulmuşdur. Sovet dövründə nəqliyyatın genişlənməsi, kurort və sanatoriyaların tikilməsi turizmi daha da canlandırmış, Lənkəran uzun müddət SSRİ-nin məşhur istirahət məkanlarından biri olmuşdur. Müstəqillik illərində qəbul edilən dövlət proqramları regionun imkanlarını yenidən gündəmə gətirmiş və turizm sahəsində yeni canlanmaya səbəb olmuşdur. Bu gün bölgədə yalnız kurort-sanatoriya deyil, ekoturizm, aqroturizm və çimərlik turizmi də inkişaf etməkdədir. Görünən odur ki, Lənkəran–Astaranın turizm potensialı hələ tam istifadə olunmayıb və düzgün idarəetmə ilə bu bölgə beynəlxalq səviyyədə daha tanınmış turizm mərkəzinə çevrilə bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). Azərbaycanın demoqrafik göstəriciləri. Bakı: DSK.
2. Paşayev, N. Ə., Əyyubov, N. H., & Eminov, Z. N. (2010). Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası: problemlər, proseslər, konstruktiv aspektlər: ümumi hissə. Bakı: Çıraq.
3. Bilalov, B. (2008). Turizmin tarixi. Bakı: Mütərcim nəşriyyatı.
4. Soltanova, H. (2015). Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı: AzTU mətbəəsi.

5. Мухтаров, А. Ш., & Хаммедов, А. М. (2003). Геотермальные ресурсы Азербайджана. Проблемы развития геотермальной энергии в странах СНГ и деятельность международного Геофонда, Москва: ЭНИН им. Г. М. Кржижановского. https://doi.org/10.13140/2.1.4344.1605
6. Babaxanov, N. A., & Əliyev, İ. Ə. (2020). Lənkəranda turizmin inkişafında termal və mineral suların rolu. Pedaqoji Universitetin Xəbərləri. Riyaziyyat və təbiət elmləri seriyası, 68(3), 66–72.
7. Сафиев, М. Мамед-Алибек. (1853). Лянкаранские минеральные источники. Кафказ, №68; №76.
8. Сафиев, М. Мамед-Алибек. (1854). Лянкаранские минеральные источники. Вестник Императорского Русского Географического общества, Ч. XLI, Кн. 2, Отд. В.
9. Сафиев, М. Мамед-Алибек. (1875). Лянкаранские минеральные источники. Кафказ, №76.
10. Витович, В. (1924). Аркеванские минеральные источники в Ленкоранском уезде. Экономический Вестник, 14(59), 14–16.
11. Анисимов, С. (1924). Путеводитель по Кавказу: Кавказский край — книга для туристов, курортных больных и торгово-промышленных деятелей. Москва: Мосполиграф.
12. Olenov, V. İ. (1928). Azərbaycan kurortları (Die Kurorte von Aserbaidjan). Bakı: Xalq səhiyyə komisarlığı.
13. Həsənov, Ş. M. (1959). Azərbaycan SSR-nin kurortları və onların müalicə əhəmiyyəti. Bakı: Birləşmiş nəşriyyat.
14. Hüseynov, M. M., & Yegizarov, A. Q. (1960). Sovet Azərbaycanının kurortları. Bakı: Azərnəşr.
15. TodayPress.az (2025, Noyabr 11). Regionlara səyahətə maraq artır – Hansı rayonlara üstünlük verilir? TodayPress. https://todaypress.tv/az/cemiyyet/regionlara-seyahete-maraq-artir-hansi-rayonlara-ustunluk-verilir-18743

## SUMMARY

## TOURISM-RECREATION RESOURCES OF THE LANKARAN-ASTARA ECONOMIC REGION, HISTORICAL-GEOGRAPHICAL ASPECTS OF THEIR STUDY

**Abdulla Rzayev**

The Lankaran-Astara economic region is considered one of the richest regions of Azerbaijan in terms of tourism and recreational potential. The subtropical climate, the coastal zone of the Caspian Sea, dense forest landscapes, as well as mineral and thermal springs are the main factors increasing the tourism attractiveness of the area. The aim of the study is to comprehensively assess the tourism and recreational resources of the economic region and to analyze the characteristics of their development. Historical-geographical analysis, comparative assessment, and statistical data analysis methods were used in the research. The analysis shows that the formation of tourism activities in the region began as early as the 19th century with the study of the therapeutic properties of mineral springs. During the Soviet period, the development of transport networks and resort infrastructure turned the region into a recreation zone of all-Union importance. In the years of independence, state programs accelerated tourism development, and along with resort tourism, ecotourism, agritourism, and beach tourism also developed. The results of the study indicate that despite its rich natural and recreational resources, the region's tourism potential is not yet fully utilized. Rational use of existing opportunities and strengthening of modern infrastructure can contribute to transforming the Lankaran-Astara economic region into an internationally recognized tourism center.

**Keywords:** *Lankaran-Astara, tourism and recreation resources, mineral springs, thermal springs, medical and health tourism*

## РЕЗЮМЕ

## ТУРИСТСКО-РЕКРЕАЦИОННЫЕ РЕСУРСЫ ЛЕНКОРАНЬ-АСТАРИНСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА И ИСТОРИКО-ГЕОГРАФИЧЕСКИЕ АСПЕКТЫ ИХ ИЗУЧЕНИЯ

**Абдулла Рзаев**

Ленкорань-Астаринский экономический район считается одним из регионов Азербайджана, обладающих наиболее богатым природным туристско-рекреационным потенциалом. Субтропический климат, прибрежная зона Каспийского моря, густые лесные ландшафты, а также минеральные и термальные источники являются основными факторами, повышающими туристическую привлекательность территории. Цель исследования заключается в комплексной оценке туристско-рекреационных ресурсов экономического района и анализе особенностей их развития. В работе использованы методы историко-географического анализа, сравнительной оценки и изучения статистических данных. Проведённый анализ показывает, что формирование туристической деятельности в регионе началось ещё в XIX веке с изучения лечебных свойств минеральных источников. В советский период благодаря развитию транспортной сети и курортной инфраструктуры регион превратился в зону отдыха общесоюзного значения. В годы независимости государственные программы придали новый импульс развитию туризма, наряду с курортным туризмом получили развитие экотуризм, агротуризм и пляжный туризм. Результаты исследования показывают, что, несмотря на богатые природные и рекреационные ресурсы, существующий туристический потенциал региона используется не в полной мере. Рациональное использование имеющихся возможностей и укрепление современной инфраструктуры могут способствовать превращению Ленкорань-Астаринского экономического района в один из международных туристических центров.

**Ключевые слова:** *Ленкорань-Астара, туристско-рекреационные ресурсы, минеральные источники, термальные источники, лечебно-оздоровительный туризм.*